Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azad rayonlarımızın bərpası regionların sosial-iqtisadi inkişafında yeni mərhələdir...

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Azərbaycan dövləti mütamadi olaraq regionların sosial-iqtisadi inkişafına böyük əhəmiyyət verir. İndiyə kimi, regionlarının sosial-iqtisadi inkişafına dair bir neçə Dövlət Proqramı qəbul edilib və proqramın icrası üzrə işlər həyata keçirilib.**

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Dövlət Proqramı Dövlət proqramı da hazırda icra edilir. Dövlət üçün regionların bütün istiqamətlərdıə inkişafı əsasıdır və bununla bağlı qəbul edilən Dövlət Proqramlarında bütün sahələr əhatə olunur. Prezident İlham Əliyevin rəhbərliyi dövründə ölkənin social-iqtisadi inkişafına xüsusi əhəmiyyət verilir. Bu gün bütün bölgələr diqqət mərkəzindədir. Baxmayaraq ki, hazırda dövlət azad ərazilərdə tikinti-quruculuq, bərpa işləri həyata keçirir, bununla belə, yenə də digər regionların inkişafı diqqətdən kənar qalmır, onlara yönəlik fəaliyyət də davam edir. Bu gün ölkəmizin hər yerində tikinti-quruculuq, abadlıq işlərinin getməsi onu göstərir ki, heç bir bölgə, heç bir sahə diqqətdən kənarda qalmır.

**Regionların sosial-iqtisadi inkişafında yeni mərhələ…**

Azad rayonlarda aparılan tikinti, quruculuq, bərpa işləri onu göstərir ki, regionların sosial-iqtisadi həyatında yeni səhifə, mərhələ açılıb. Hazırda azad rayonların bərpası kimi böyük bir prosesin başlanğıcındayıq və təbii ki, bud a külli miqdarda vəsait tələb edən məsələdir. Böyük bir iş, problem qarşında olsaq da, ancaq regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına fasilə verilmədi. Bildiyimiz qədər artıq 4-cü Dövlət Proqramı icradadır. Təbii, hökumət bu proqramı qəbul edib və həyata keçirir. Əlbəttə, burada əsas diqqəti biz də azad edilmiş ərazilərə yönəltmək istəyirik. Azad rayonlarda yaradılan bütün strukturlar, su elektrik stansiyaları, külək elektrik stansiyası, yaşayış məntəqələrinin, massivlərinin salınması, qaz təchizatı infrastrukturu yaradılması, yaşıllıq zolaqlarının salınması prosesi gedir. Təbii ki, bərpa işlərinin formalarından danışarkən yeni salınan qəsəbələri, smart kəndləri, Ağalı ağıllı kəndini qeyd etməliyik. Bu gün smart tipli yeni qəsəbələr, kəndlər salınır. Azad rayonlarda həyata keçirilən bu quruculuq, bərpa işləri, bütövlükdə orada görülən hər bir iş Azərbaycan dövlətinin hesabına görülür. Bilirik ki, Azərbaycan xaricdən buna görə heç bir yardım almır, bunu özü həyata keçirir. Əlbəttə, qardaş Türkiyənin şirkətlərinin iştirakı ilə bu proses gedir. Belə demək mümkündürsə, iki qardaş ölkə əl-ələ verib bu zorluqları aradan qaldırmaq istiqamətində hərəkət edirlər.



**"…Torpaqlarımızı azad etdiyimiz kimi, öz gücümüzə də onu bərpa edirik, dirçəldirik"**

Müasir İnkişaf Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü "Bakı-Xəbər"ə bildirdi ki, bu gün a00zad rayonların inkişafına böyük diqqət yetirilməsi, onunla da paralel digər rayonların da sosial-iqtisadi inkişafının diqqətdə saxlanılması təqdirəlayiq haldır. M.Göyüşlü qeyd etdi ki, azad rayonlarımızın bərpası regionların sosial-iqtisadi inkişafında yeni mərhələdir. "Əlbəttə, azad rayonların sossial-iqtisadi inkişafı ilə bağlı görülən işlər təqdirəlayiqdir. Bu gün burada həyata keçirilən bütün proseslər Azərbaycan dövlətinin maliyəsi ilə kerçəkləşir. Bu Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin siyasi irasdəsinin göstəricisidir. Azərbaycan vaxtilə xarici ölkələrdən və beynəlxalq təşkilatlardan kredit alan, özünü bu kredit hesabına təmin edən, varlığını saxlayan ölkə deyil, öz problem və çətinliklərini özü həll edə bilən bir ölkəyə çevirilib. Azərbaycan iqtisadi cəhətdən heç bir dövlətdən, xarici bankdan asılı ölkələrdən deyil. İstər regionların siyasi-iqtisadi inkişafı ilə bağlı dövlətin həyata keçirdiyi işlər, istərsə də azad ərazilərimizdə görülən nəhəng tikinti-quruculuq, bərpa işləri Azərbaycan dövlətinin həm iqtisadi gücünün artmasının, həm də güclü mərkəzi hakimiyyətin siyasi iradəsinin göstəricidir. Biz bu şəraitləri qiymətləndiririk. Yəni həm öz gücümüzlə öz torpaqlarımızı azad etməyimiz, həm də öz hesabımıza bu torpaqları dirçəltməyimiz bir nümunədir. Biz öz gücümüzə torpaqlarımızı azad etdiyimiz kimi, öz gücümüzə də onu bərpa edirik, dirçəldirik. Əlbəttə, burada qardaş Türkiyənin də dəstəyini vurğulamalıyıq. Biz həm azad ərazilərin, həm də digər regionların sosial-iqtisadi inkişafını öz daxili imkanlarımız hesabına həyata keçiririk. Ermənistandan fəqrli olaraq bütün işləri özümüz görürük. Ermənistan isə bütövlükdə xarici borclardan asılı olan, ondan-bundan yardım, kredit alan ölkədir. Bu ölkə o hesab nəticəsində yaşayır. Yaxud yaşamağa çalışan, borc bataqlığında çabalayan bir dövlətdir".

M.Göyüşlü qeyd etdi ki, Azərbaycan torpaqlarını azad etdiyi dövrdə ona ən çox mənəvi dəstək verən ölkə Türkiyə olub və bu gün bərpa prosesində qardaş ölkənin dəstəyini hiss edirik. Digər türk dövlətlərinin də bu prosesə qatqıda olduğunu deyən M.Göyüşlü hesab edir ki, Qazaxıstan, Özbəksistan kimi ölkələrinin də azad ərazilərdə layihələrdə iştirakı reallaşır. Burada digər türk dövlətlərinin töhfə verəcəyi proses var və bütün türk ölkələri azad rayonların tikinti, quruculuq, bərpa prosesində iştirakda maraqları, xoş niyyətləri var. "Bütün bunlar müsbətdir. Amma bütün bu məsələlərdə Azərbaycan dövlətinin gücü, dövlət baçısının siyasi iradəsi və iqtisadi imkanlar əsas rol oynayır"-eyə bildirən qurum rəhbəri qeyd etdi ki, Azərbaycanın bu sahədəki addımları Ermənsitan da daxil olmaqla bəzi dövlətləri qıcıqlandırır, amma bu təsirsizdir, Azərbaycan güclənir, inkişaf edir və öz yolu ilə irəliləyir.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**